**Bakı Xəbər**. - 2024. - 7 noyabr. - № 203. - S. 8.

# İqlim fəsadlarının demoqrafik duruma təsiri Azərbaycanda illər öncə gündəmə gətirildi...

**İradə Sarıyeva**

**Yaşadığımız dünyanın ən böyük problemlərindən biri iqlim dəyişiklikləridir ki, bundan insanlar da, yer üzündəki digər bütün canlılar da böyük ziyan çəkir. Eyni zamanda iqlim dəyişikliyi özü ilə başqa təhlükəli məsələlər də gətirir ki, bu istiqamətdə iqlim dəyişmələri nəticəsində demoqrafik problemlər meydana çıxır.**

Əksər ekspertlər deyir ki, bu amil həm demoqrafik problemlərin ön çıxmasına səbəb olur, həm də bu faktor miqrant axınının daha artmasına səbəb olur. Bir neçə il əvvəl proqnozlaşdırılırdı ki, iqlim dəyişmələri özü ilə demoqrafik problemlər də gətirəcək, dünyanın bir ucundan o biri ucuna insan axınını gücləndirəcək. Belə də olur. Bir yandan müharibələr, bir yandan da iqlim dəyişikliyi bu kimi məsələləri daha da gücləndirir.

**İqlim dəyişmələri nədir?**

İqlim dəyişmələri ətraf mühitin zəhərlənməsi, çirklənməsi, atmosferin korlanması, qlobal quraqlığın, istiləşmənin əmələ gəlməsi, su qıtlığının yaranması, su hövzələrinin, mənbələrinin qurması, yağıntıların azalması, qida problemi, ərzaq çatışmazlı deməkdir. Məsələn, insanların ömür səviyyəsinin azalmasının, insanların sağlamlıq problemlərinin yaranmasının, müxtəlif xəstəliklərin artmasının, yayılmasının bir səbəbi də iqlim dəyişmələri ilə bağlıdır. Eyni zamanda insanın sosial yaşayış səviyyəsinin aşağı düşməsi də bu amilin təzahürüdür. Bütün bunlar demək olar ki, demoqrafik göstəricilərə və orta ömür göstəricisinə, insanın sağlam yaşayışına və sairə mənfi təsir göstərir. İqlim dəyişmələrinin Azərbaycanda demoqrafik vəziyyətə ziyanlı təsirinin neytrallaşdırılması üçün görülən və görülməli olan işlər nədən ibarətdir?

**"...demoqrafik göstəriciləri dəyişdirə bilər"**

Millət vəkili Pərvanə Vəliyeva "Bakı-Xəbər"ə bildirdi ki, iqlim dəyişmələri dünyaya, insanlara böyük problemlər gətirir. "İqlim dəyişiklikləri nəticəsində sel, quraqlıq, dəniz səviyyəsinin qalxması kimi təbii fəlakətlərin artması, insanların yaşadıqları yerləri tərk etməsinə səbəb ola bilər. Xüsusən də sahil və kənd bölgələrində yaşayan insanlar iqlim fəlakətlərindən qaçmaq üçün daha təhlükəsiz ərazilərə köç edir. Bu da miqrasiya dinamikasını dəyişir və bəzi bölgələrdə sıxlığın artmasına, digərlərində isə azalmasına gətirib çıxarır. Ekstremal istilər və hava keyfiyyətinin pisləşməsi insan sağlamlığına mənfi təsir göstərir, xüsusilə yaşlı, uşaq və xəstə insanların ömrünü qısaldır. Bu, doğum və ölüm nisbətlərinə təsir göstərərək demoqrafik göstəriciləri dəyişdirə bilər".

Millət vəkili qeyd etdi ki, həmçinin, isti havaların artması tropik xəstəliklərin daha geniş coğrafiyalarda yayılmasına səbəb ola bilər. "Bəzi bölgələrdə iqlim fəlakətləri səbəbindən gənc əhali daha çox köç edir, bu da yaşlı əhalinin həmin bölgələrdə qalmasına və yaş piramidasının dəyişməsinə gətirib çıxarır. Yaşlı əhalinin artması isə həmin bölgələrdə sosial və səhiyyə xidmətlərinə ehtiyacı artırır.

Ölkəmizdə iqlim dəyişmələrinin demoqrafik vəziyyətə nəzərə çarpacaq dərəcədə təsiri yoxdur"- deyə P.Vəliyeva bildirdi.

**"Bu da dolayısı ilə həm də demoqrafik vəziyyətə təsir göstərir"**

Sosiologiya üzrə fəlsəfə doktoru, sosioloq Üzeyir Şəfiyev "Bakı-Xəbər"ə bildirdi ki, iqlim dəyişiklikləri qlobal təsir gücünə malikdir, qlobal bir hadisədir, dünyanın istənilən ölkəsində bu və digər şəkildə iqlim dəyişikliklərinin fəsadları hiss olunur: "Bu eyni zamanda dövlətlərarası münasibətlərə təsir göstərir. Baş verən müharibələrin səbəbi də iqlim dəyişikliklərinin preventiv gözləntiləri qarşısında dövlətlərin öz immunitetini gücləndirmək və sanki öz varlığı, var olmaq uğrunda bir savaş kimi də qiymətləndirmək olar. Həmçinin də bilirsiz ki, iqlim dəyişiklikləri müxtəlif təbii fəlakətləri, müxtəlof təbii hadisələri körükləyir. Məsələn, görürsüz ki, iqlim dəyişikliyi fonunda buzlaqlar əriyir və həmin ərazilərdə hətta mamırlaşa geir. Bu o deməkdir ki, bir sıra ərazilərdə səhralaşma gedir, su qıtlığı yaranır və bütövlükdə bu da torpaqları sıradan çıxarır, iqtisadi inkişafı ləngidir və insanlar bir ərazidən digər əraziyə köç etmək məcburiyyətində qalırlar. "İqlim qaçqınları" deyilən bir anlayış var. Yəni iqlim dəyişmələri, onun yaratdığı fəsadlar nəticəsində qasırğalar, tufanlar, sellər, sular, səhralaşmalar baş verir və bütün bu amillər də "iqlim qaçqınları" meydana gəlir. Mövbcud olan bu "iqlim qaçqınları" bunu özünü daha çox təzahür etdirir. Əlbəttə, tarixə ekuskrusiya etsək biz görərik ki, əvvəlki dövrlərdə də, müxtəlif tarixi mərhələlərdə də iqlim dəyişmələri nəticəsində yaranan təbiət hadisələr nəticəsində belə köçlər olub. Bilirsiz ki, tarixdə buzlaşma,

istiləşmə dövrləri olub. Bunlar təbii ki, qlobal miqyasda demoqrafik vəziyyətə təsir göstərib. Yəni "iqlim qaçqınları" o vaxt da olub, indi də iqilim dəyişmələri fonunda baş verir. Bu da səbəbsiz deyil. Qeyd etdiyimiz kimi, səhralaşma, su qıtlığı, torpağın gücdən düşməsi, torpağın əhalini yedirdə bilməməsi nəticəsində insanlar məcburiyyət qarşısında bir ərazidən başqa bir əraziyə köç edirlər. Eyni zamanda bu fonda həm də dövlətlərarası münasibətlərdə gərginləşmə, ekskolasiya müşahidə olunur. Çünki dövlətlər belə hadisələri proqnozlaşdıraraq var olmaq üçün daha sakit, daha zəngin sərvətlərə malik ərazilər, logistika, dəhlizlər uğrunda savaşa başlayır. Şübhəsiz ki, bu da dolayısı ilə həm də demoqrafik vəziyyətə təsir göstərir, insan itkilərinə, humanitar fəlakətlərə gətirib çıxarır, insan itkiləri ilə nəticələnir, müharibələrə səbəb olur. Eyni zamanda iqlim dəyişmələri fonunda baş verən epidemioyaları tez-tez görürük. Ebola, koronavirus pandemiyası buna canlı misaldır. Bu da bu və ya digər şəkildə qlobal miqyasda ölkələrin demoqrafik vəziyyətinə təsir edir, insan təlfatına, humanitar fəlakətələrə səbəb olur. Bununla yanaşı iqlim dəyişmələri insanların səhhətinə, sağlamlığıq durumuna şübhəsiz ki, təsir göstərir. Çünki iqlim dəyişikliklərini düşünən insanlar narahat olurlar, biz hamımız bu dünya evinin sakinləriyik. İstənilər yerdə baş verən hadisələr şübhəsiz ki, bu evin sakinlərinə təsir göstərir. Bəzi insanalarda psixoloji gərginlik, stres, depresiya, kütləvi  melanxoliya vəziyyəti özünü göstərir. Belə hallarda intiharların, cinayətlərin, aqressiv reaksiyaların sayı artır, insanların bir-birinə münasibətlərində bunu müşahidə edirik. Eyni zamanda əhalinin mexaniki artımı sürəkli bir şəkil alır və biz bunu demoqrafik göstərici kimi qeyd edə bilərik. Mexaniki artım nədir? Yəni təbii artım, doğuş aşağı düşür, ancaq mexaniki artım, yəni miqrantlar hesabına  ölkələrin əhalisinin sayı sürəkli şəkildə arata bilir. Buna Avropa ölkələrində "miqrant eksplansiyası" adı qoyublar. Miqrantların bu və digər ölkəyə gəlişi nəticəsində onlar yerli əhali üzərində daha çox dominantlıq etməyə başlayır, yerli əhalinin qan tərkibinə, genefondun göstəricilərinə təsir göstərir. Bunu da avropalılar "miqrant eksplansiyası"  kimi dəyərləndirir" - deyə Ü.Şəfiyev qeyd etdi.

Sosioloq bildirdi ki, bütövlükdə iqlim dəyişikliklərinin dünya evinin bütün bucaqlarına, bütün ölkələrəı bu və digər şəkildə təsiri var. "Çünki biz qlobal dünyanın bir parçasıyıq. Dünyanın istənilən bucağında baş verən ahdisə domino effekti ilə istənilən bir əraziyə təsirini, fəsadlarını göstərir. Bu baxımdan, Azərbaycan da demoqrafik və iqlim dəyişiklikləri baxımından priventiv tədbirlər görür. Görürsüz ki, ölkəmizdə alternativ enerji mənbələri inkişaf etdirilir və Azərbaycan  alternativ enerji mənbələrinin təkcə istehsalçısı kimi yox, həm də onun ixracatçısına çevrilmək əzmindədir. Məsələn, bu yaxınlarda Azərbaycan COP29 kimi qlobal, böyük bir tədbir keçiriləcək. Bu əslində Azərbaycana bəslənən böyük ehtimad deməkdir. Azərbaycan əvvəllər də bir sıra beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edib. Güman edirik ki, bu qlobal tədbirdə də Azərbaycan fürsəti imkana çevirərək dünya ictimaiyyətinə, bəşəriyyətə, bəşər övladına, qlobal güclərə öz mesajını ötürəcək. Bundan bir tribuna kimi istifadə edəcək. Əvvəlki tədbirlər kimi, bu tədbirdə də Azərbaycan, ölkə başçısı dünyaya humanist mesajlar ötürəcək. Yenə də onları birlikdə bu dünya evini qoruması ilə bağlı məsuliyyətə dəvət edəcək, şübhəsiz ki, onlara çağrış edəcək. Bu baxımdan, Azərbaycanın buna mənəvi haqqı çatır, çünki Azərbaycan  2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edib. Eyni zamanda Azərbaycanda 2021-ci ilin 2 fevral tarixində Sosial - İqtisadi İnkifa dair Milli Prioritetlər qəbul olunub ki, onların içində də məhz qlobal problemlər kimi yaşıl məkan və iqlim məsələləri də xüsusi vurğulanır. Ölkəmizdə maksimum çalışılır ki, həm demokqrafik baxımdan ölkə əhalisi dayanıqlı olsun, "miqrant eksplansiyası"na məruz qalmasın. Çünki təbii artımı təşkil etmək daha arzuolunandır".

Ü.Şəfiyev qeyd etdi ki, Azərbaycan eyni zamanda alternativ enerji mənbələrini inkişaf etdirmək məqsədini qarşına qoyub, ölkəmiz həm də bununla bağlı öhtəlik də götürüb. O, vurğuladı ki, Azərbaycan BMT-nin iqlim dəyişiklikləri üzrə konvensiyasına qoşulu və öhtəliklər götürüb. Ü.Şəfiyev qeyd etdi ki, Azərbaycan 2030-cu ilə qədər karbon emissiyasını 35 faiz, 2050-ci ilə qədər 40 faiz endirməklə bağlı öhtəlik götürüb. Ü.Şəfiyev bildirdi ki, o cümlədən Qarabağ və Şərqi Zəngəzur ərazisini sıfır emissiya zonasına çevirməklə bağlı öhtəlik götürüb. "Bu istiqamətdə artıq Azərbayanın real və praktik addımları da görsənir. Çünki orada bir sıra qlobal səviyyəli layihələr həayata keçirilir. Onu da təəssüflə qeyd edim ki, bəli, bəzi dövlətlər hələ də bu istiqamətdə öz məsuliyyətlərini başa düşmürlər. Ümumiyyətlə, beynəlxalq ictimaiyyətdə iqlim dəyişiklikləri ilə bağlı fikir haçalanır. Bəzi qüvvələr elə hesab edir ki, iqlim dəyişiklikləri qlobal problem kimi süni şəkildə şişirdilir. Guya bu inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrin inkişafını ləngitmək üçün düşünülmüş bir strategiyasıdır, siyasətidir. Özəlliklə də ABŞ və onun həndəvərində olan dövlətlərin Asiya nəhənglərinə, o cümlədən də Çinə qarşı qeyri-sağlam rəqabətinin təzahürü kimi qiymətləndirilir. Digər qisim tədqiqatlar və insanlar isə belə deyirlər ki, xeyr, bu gün gerçək qlobal iqlim dəyişiklikləri var və onun çox ciddi fəsadları mövcuddur. Bu baxımdan, onlar hesab edirlər ki, karbon emissiyası sənayeləşmə dövrünə qədər, yəni 1, 5 s elsə endirilməsə qlobal iqlim dəyişikliklərinin fəsadları öldürücü, məhvedici ola, bu da bəşəriyyətin varlığına son qoya bilər. Göründüyü kimi, bu çox mübahisələndirilən, müzakirəyə açıq məsələdir. Bu baxımdan, görürük ki, inkişaf etmiş dövlətlər hər nə

qədər qlobal iqlim dəyişiklikləri ilə bağlı çağrışlar etsələr, amma özləri öz fəaliyyətlərində bu şüarlara, elan etdikləri hədəflərə adekvat hərəkət etmirlər. Belə məlum olur ki, məhz karbon emissiyası həmin ölkələrdə daha çoxdur və onların fikri, düşüncəsi və əməli uyğun gəlmir. Bu baxımdan, inanırıq ki, nəhayət, dünya evinin sakinləri iqlim dəyişiklikləri bağlı səmimi addımlar atacaq. Onlar iqlim dəyişikliklərinə qarşı mübarizənin imitasiya etməyəcəklər, Azərbaycan kimi ortaya səmimi bir mövqe qoyacaqlar. Göründüyü kimi Azərbaycan həm çağrışalr edir, həm də onunla bağlı adekvat addımlar atır. Azərbaycanın timsalında biz bunun örnəyini görə bilirik. Hesab edirəm ki, iqlim dəyişikliklərinin bütün qlobal aləmə təsiri olacaq və Azərbaycan da bunu maksimum nəzərə alaraq futroloji, strateji planlaşdırma həyata keçirir və preventiv tədbirlərlə ölkənin demoqrafik vəziyyətini sabit saxlamağa, eyni zamanda demoqrafik artıma, təbii artıma nail olmağa çalışır, həm də əhalinin sağlamlığı, səhhəti ilə bağlı qabaqlayıcı tədbirlər görür" - deyə Ü.Şəfiyev vurğuladı.